

***"Bizi birləşdirən aramızdakı münasibətlərdir, qardaşlığımızdır, ortaq keçmişimizdir, bu günümüzdür... Bizim gücümüz bizim birliyimizdədir. Biz çalışmalıyıq ki, bütün sahələrdə bu birliyi daha da möhkəmləndirək". Prezident İlham Əliyevin hələ 2010-cu ildə söylədiyi bu fikirlər zaman keçdikcə həyatda öz real təsdiqini tapıb. Dövlət başçımızın bu günlərdə İstanbula – növbəti Zirvə görüşünə getdiyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bu baxımdan ümidləri tam doğruldan bir təşkilata çevrilməkdədir. TDƏŞ-in əsas məqsədi türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etməkdir.***

# Türkdilli dövlətlərin birliyi daha da möhkəmlənir



Son dərəcə qürurverici faktdır ki, VIII Zirvə Görüşündə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə "Türk Dünyasının Ali Ordeni" təqdim edilib. Bu yüksək mükafat qalib ölkənin müzəffər rəhbərinə qazanılan böyük zəfərə və türk birliyi naminə xidmətlərinə görə verilib.

On iki il əvvəl türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən Zirvə görüşündə imzalanmış müvafiq sazişə əsasən yaradılan TDƏŞ o vaxtdan qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviqi və sair sahələr üzrə çoxşaxəli çalışmaları reallaşdırır.

Bildiyimiz kimi, inişil oktyabr ayında Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 7-ci Zirvə görüşü keçirilib. Həmin görüş çərçivəsində uğurlu bir biznes-forum təşkil edilib. TDƏŞ-in Dövlət Başçıları Şurasının 2020-ci ilin aprelində "COVID-19 pandemiyası ilə mübarizədə həmrəylik və əməkdaşlıq" mövzusuna həsr olunan Zirvə görüşündə Bakı Bəyannaməsi qəbul olunub. Tərəflər dünyanı saran pandemiya ilə mübarizədə elmi, yenilikçi, texnoloji və tibbi potensiallarını tam səfərbər etməyi qərara alıblar. Bu il martın 31-də isə videokonfrans vasitəsilə TDƏŞ-in qeyri-rəsmi Zirvə görüşündə Türkistan Bəyannaməsi qəbul edilib, həmçinin Qazaxıstanın Türkistan şəhəri "Türk Dünyasının Mənəvi paytaxtı" elan olunub. TDƏŞ-in ayrı-ayrı iclasları da əməkdaşlıq üfüqlərinin genişlənməsinə xidmət edib.

Xüsusi vurğulamaq lazımdır ki, TDƏŞ hər zaman Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləyib. TDƏŞ Katibliyi 2020-ci ilin iyul ayında baş vermiş Tovuz hadisələri və 27 sentyabrda Ermənistan tərəfindən həyata keçirilən təxribatlarla bağlı kəskin bəyanatlar verib, TDƏŞ-in Baş katibi Bağdad Amreyev 2020-ci il oktyabrın 20-də Gəncə şəhərini ziyarət edib, Ermənistan tərəfindən bu şəhərin raket atəşinə tutulması ilə bağlı türk dünyası adından həmrəyliyi nümayiş etdirən bəyanat verib. Eyni zamanda, TDƏŞ nümayəndə heyəti işğaldan azad edilmiş Ağdam və Füzuli rayonlarına da səfər edib.

Bu il sentyabrın 10-da Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin iqtisadiyyat nazirlərinin 10-cu görüşü keçirilib. Qeyd edilib ki, Azərbaycanda Türk Şurasına üzv ölkələrlə ticarət, investisiya əməkdaşlığı və iş adamları arasında əlaqələrə böyük önəm verilir. Tədbir çərçivəsində TDƏŞ-ə üzv ölkələrin dövlət orqanları arasında müxtəlif iqtisadi zonalar sahəsində məlumat və təcrübə mübadiləsi haqqında Anlaşma Memorandumu imzalanıb. Sənədin təşkilat daxilində ümumi rəqəmsal platformanın yaradılmasına töhfə verəcəyi istiqamətində uğurlu iqtisadi model tətbiq etməyə şərait yaradacağı qeyd olunub.

Noyabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Katibliyinin yeni binasının açılış mərasiminə qatılıb. Türkiyənin, Qazaxıstanın, Özbəkistanın və Qırğız Respublikasının prezidentləri, həmçinin, Macarıstanın Baş naziri və TDƏŞ-in Baş katibinin iştirakı ilə binanın önündə ölkələrin dövlət bayraqları qaldırılıb, katibliyin yeni binasının rəmzi açılışını bildirən lent kəsilib. Daha öncə dövlətimizin başçısı Qırğız Respublikasının Prezidenti Sadır Japarovla görüşüb. Ümumiyyətlə bütün görüşlərdə əminlik ifadə olunub ki, artıq təşkilata çevrilən şuranın bu Zirvə görüşü də bütün türk dünyası üçün tarixi əhəmiyyət kəsb edəcək, həm də ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına təkan verəcək.

Bir sözlə, Azərbaycan iki il ərzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına layiqincə rəhbərlik edib.

Düşünürük ki, TDƏŞ-in bu Zirvə görüşü də xalqlarımızın rifahı naminə əlaqələrin tam dəyərli olması və son nəticəyə yönəlməsi üçün ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etməsinə güclü təkan verəcək. Bu gün türk-İslam dünyasını Avropa ilə birləşdirən ən əsas ölkəyə çevrilmiş Azərbaycan bu amal naminə yenə də əlindən gələni edəcək.

***Səfalı PAŞAYEV,***
***YAP Masallı rayon təşkilatı sədrinin müavini***

Xalq qəzeti.- 2021.- 14 noyabr.- S.3.